# DÜNYAYA GERÇƏKÇİ BAXIŞIN TƏZADLI ÇALARLARI



**Ziyadxan Əliyev**
*Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru*

Bu gün respublikanın çox da geniş olmayan təsviri sənət məkanında həyat həqiqətlərinə realist-gerçəkçi və “avanqard-müasir” baxışın duyulası rəqabətdə olması hər kəsə bəllidir. Bununla belə indiki məqamda “sənət xəlbiri”ndə nələrin qalacağına, nələrinsə süzülüb itəcəyinə inamımızın qarşılığında nəticəsi indidən məlum olan süni “müasir” görünmək yarışmasına münasibət bildirməkdən uzağıq. Belə ki, məqsədimiz Sizi əks cəbhənin təmsilçisi, dünyaya özünəməxsus gerçəkçi baxışı ilə müxtəlif sərgilərdə tamaşaçı rəğbəti qazanmağa nail olan rəngkar, Azərbaycan Rəssamlar İttifaqının üzvü Nadir Bayrışovun yaradıcılıq yolu ilə tanış etməkdir.

Öncə deyək ki, 1956-cı ildə Neftçala rayonunda dünyaya göz açan Nadir Bayrışov ixtisas təhsilini əvvəlcə məşhur “Əzimzadə məktəbi”ndə (1971-1975), sonra isə Azərbaycan Dövlət İncəsənət Universitetində (1978-1983) almışdır.



Doqquzuncu simfoniyanı dinləyərkən...



Cəhənnəm



Bayraqdar

Onun çoxsaylı əsərlərinin bəzilərinin təhlilinə keçməzdən qeyd etmək lazımdır ki, onun yaratdıqları dünyaya gerçəkçi baxışın bədii-estetik imkanlarının nəhayətsizliyini təsdiqləyə biləcək sənət nümunələridir. Heç şübhəsiz bunu şərtləndirən başlıca səbəb onun gerçəklikdə gördüklərindən heyrətlənməkdən usanmamaq və bunu kətan üzərində başqalarını duyğulandırmaq həddinə çatdıra bilmək bacarığıdır. Onun həyat adiliyində cəlbedici nələrinsə hələ də qaldığına bizi inandırması demək olar ki, hər bir əsərindən görünür. Bəzən isə həyat həqiqətlərini onun çox sərt qəbul oluna biləcək “bədii güzgü”də əks etdirməsi, başqalarında müşahidə olunmayan yaradıcı-vətəndaş mövqeyini sərgiləməsi isə onun zamanında müstəqilliyimiz uğrunda gedən mübarizədə göstərdiyi fəallıqla bağlıdır, desək, yanılmarıq. Elə onun yaradıcılığında ötən əsrin sonlarında respublikamızda baş verən olaylara neçə-neçə mövzunun yer alması da bilavasitə onun bü hadisələrin içində olması, müasirləriniun yaşadıqları təzadlı anlara şəxsən şahidlik etməsindən irəli gəlmişdir. Bu mənada onun qanlı 20 Yanvar hadisəsinə və doğma yurd-yuvalarından didərgin düşmüş soydaşlarımızın taleyinə həsr etdiyi əsərlər xüsusilə təsirli və yaddaqalandırlar. Onun insan psixologiyasına bələdçiliyi, müşahidə özünəməxsusluğu ovqatın təsirli bədiiləşdirilməsinə qədər yüksəldiyindən yüksək bədii-estetik tutumu ilə yanaşı, həm də tamaşaçını kifayət qədər duyğulandırmaq gücündədirlər. Belə tabloların birində 1990-cı ilin yanvarında sovet ordusunun xalqımıza yönəli xəyanətkar təcavüzünə etiraz etdiyindən tutulan və həbsxana həyatını yaşayan mübariz insanın düşüncəli, nurlu çöhrəsi qaranlığın hökm sürdüyü məkanda qələbəyə inamın rəmzi kimi qəbul olunur...

Haqqı uğrunda mübarizəni hər insanın ali keyfiyyəti hesab edən Nadir Bayrışovun bu mövzuda bir-birindən fərqli iki “Cihad” ( 2001) adlı əsər işləməsini yəqin ki, təbii saymaq olar. Onların birində öndə iri planda, gərginlik yaşanan bir mənzərənin fonunda təqdim olunmuş döyüşçünün qətiyyət dolu çöhrəsi onun müqəddəs amal uğrunda mübarizə apardığına tamaşaçısını inandırır. Obraz üçün gənc əvəzinə, yaşlı, artıq dünyanın hər üzünü görmüş müdrik insanın seçilməsi də məqsədli olub, tamaşaçını bu mübarizənin kiçikli-böyüklü hamının qatıldığı cihad olduğuna inandırır...

Onun “Mücahid” (1999) adlı portretini tutum etibarilə yuxarıdakı əsərin davamı hesab etmək olar. Rəssamın



Avtoportret

“Bayraqdar” (1995) tablosunda isə onun dövlət atributlarımıza ehtiramını görürük. Hər iki əsərdə obrazın adət etdiyimizdən də bir az iri, az qala çərçivəyə sığışmayan biçimdə təqdimatı da yaşananları qabarıq göstərmək istəyindən irəli gəlib...

Ümumiyyətlə, rəssam çox tez-tez ən müxtəlif taleli insanların yaşantılarına işıq salmağa üstünlük verir. O, bilir ki, bu narahat dünyamızda həmdəm olmalı insanları çıraqla axtarmağa heç ehtiyac da yoxdur. Çox vaxt bələlərini görməməyə çalışsaq da, əslində onlar bizə çox yaxındırlar, ətrafımızdadırlar. Belə əsərlərin birində rəssam açıq ovcunda “qazandığını”, qoltuğunda isə ruzisini daşıyan insanın zülmət dolu bir gecədən umduğu təmənnanın nədən ibarət olduğuna tamaşaçısı ilə birlikdə cavab tapmağa çalışır...

Başqa bir əsərdə “ömrünü” başa vurmaqda olan qaralmış dirəklərin yanında, ənənəvi şux rəngini itirən, dolub-boşalmağa hazırlaşan göy üzünün fonunda təsvir olunan, dayağı əl əsası olan insanın görəsən bu dünyadan umacağı nədir? Göründüyü kimi rəssam yenə suallıdır. Əslində ümidsizliyin tablonun bütün detallarında hifz olunması qarşılığında çox vaxt çörəklə imtahana çəkilən insanlarla onları bu ağır və qeyri-insani sınağa məhkum edənlərə yönəli bu suallı tablo da rəssam təfsirində “cavablı” dünyamızın hələ də narahat məkan olaraq qaldığına işarədir...

Nadir Bayrışovun əsərlərindəki obrazlar bir qayda olaraq müjdə istəklidirlər. Belə ki, rəssamı onu əhatə edənlərin yetişdiklərindən çox, yetişəcəkləri maraqlandırır. Onun təqdimatında süjetli tablolarda yer almış müxtəlif yaşlı insanlar buna layiqli görünürlər. “Gözləmə” (1996) əsərindəki obrazlar da bu ovqatdadırlar. Elə yaşlı kişinin kompozisiyada yoxluğu onun tamaşaçısını suallar məngənəsinə salır. Hiss olunur ki, narahatlıq keçirdikləri elə duruşlarından duyulan müxtəlif yaşlı bu qadınlar ər, ata, qardaş soraqlıdırlar. Heykəlləşmiş kimi görünən bu obrazları səciyyələndirən yaddaqalan forma-biçim, ifadəli siluet və lakonik rəng həlli rəssam düşüncələrinin reallaşmasında mühüm rol oynayır, desək, yanılmarıq...

Rəssamın çoxfiqurlu “Qaçqınlar” (1996) tablosunun respublika sərgisində uğurla nümayişi həm də onun bu mövzuya həsr olunmuş ən yaxşı əsərlərdən olmasının təsdiqi oldu. Üfiqi kompozisiyada dədə-baba yurdundan didərfin düşmüş çoxsaylı insanları bir araya gətirən müəllif onu sözün əsl mənasında təzadlı yaşantılar toplusuna, bütünlükdə isə təcavüzkara yönəli bədii ittihama çevirə bilmişdir...

Rəssamın dünyaşöhrətli bəstəkar Bethoveni əsərlərindən birinin qəhrəmanına çevirməsi də təsadüfi deyil. Musiqiçinin “Doqquzuncu simfoniya”sından duyğulanan müəllif həm də günahlı olan bu narahat dünyanı bir ev kimi qəbul etdiyini sərgiləyib. Bethovenin iri təqdim olunmuş obrazını əhatələyən gərginliklə dolu məkanların paralanması da rəssamın fikrinin açılmasına xidmət edir, narahat dünyamızı ağrılı yaşantılardan azad etməyin mübarizədən keçdiyini xatırladır...



Nadir Bayrışov yaratdığı yalnız bir silsiləyə “Narahat dünya” adı versə də, demək olar ki, onun əksər əsərlərində obrazlarının gərginliklə üz-üzə qaldıqlarına, təzadlı hisslər keçirdiklərinə şahidlik edirik. Onun “Qafqaz” (1999) adlı triptixi də bu qəbildəndir. Tarixən dünyada ən mərd insanların yurdu kimi tanınan Qafqazda indiyə kimi sənqiməyən qanlı hadisələrə biganə qalmayan rəssam bu qeyri-bərabər mübarizənin üç epizodunu triptixdə görüntüyə gətirib. Döyüş ərəfəsi namaz qılan, düşmənlə qanlı döyüşdə qələbə çalan və bunun sevincini əsgəri qaydada qeyd edən mücahidlərin obrazları bu əhatəli görüntüdə özünün yaddaqalan bədii həllini tapıb. Müəllif hadisələrin gərginliyini obrazlarla yanaşı həm də ətraf mühitin, xüsusilə havanın həyəcan doğuran rəng ovqatında ifadə etməklə süjetlərin təsirliliyinə nail olmuşdur...

Nadir Bayrışovun təxəyyülünün nəticəsi olan “Cəhənnəm” (2002) adlı triptixi də tamaşaçı fikirlərini duyğulandırmaq gücündə olan əsərlərdəndir. O, düşüncələrini daha çox rəmzi elementlərlə ifadə etsə də, elə onların forma-biçimində, qəribə və gözlənilməz rakurslarda təqdimatında, ən başlıcası isə gərginliyin daşıyıcısı olan təzadlı rənglərində cəhənnəmin heç də “arzulanan” bir məkan olmadığını sərgiləyə bilib. Bizcə rəssamın başlıca istəyi də elə bunu göstərmək olub. Odur ki, əsər reallıqda “Cəhənnəm” adlansa da, əslində insanları ora düşməməyə çalışmağa, bunun üçün daha xoş niyyətli, işıqlı əməl sahibi olmağa səsləyən xatırlatmadır...

Bu yerdə deyək ki, qəribə də olsa rəssamın fərqli mövzulara həsr etdiyi əsərlərin bədii həllində də duyulası gərginlik hökm sürür. Bunu onun “Rəssam” (1993), “Mütəfəkkir” (1996), “Muğam” (1997), “Xatirə” (1998) və s. tablolarında müşahidə etmək mümkündür.

Nadir Bayrışov əsərlərində işlətdiyi bədii ifadə vasitələrini ovqat daşıyıcısına çevirməyi bacaran rəssamlardandır. Onun çəkdiyi portretlərdə də bu məziyyət duyulmaqdadır. Bəzən bu ovqat daşıyıcılığına yönəli bədii şərh həta qeyri-adi dərəcədə təzadlı olur. Onun “Məktub” (2007) əsərində günəşli səmanın pəncərədən süzülən işığı qarşısında baxışlarını tamaşaçıya zilləmiş qırmızı geyimli qadın təsvir olunub. Qırmızı geyim və işıqlı pəncərə ilə təzad yaradan mənzilin divarının duyulası qaralığı tamaşaçı tərəfindən heç də nikbinlik əlaməti kimi qəbul olunmur. Odur ki, zərif qadın əllərini indiki halda az qala “yandıran” bəyaz rəngli məktub kompozisiyanın dominantına çevrilməklə onunla təmasda olanları düşüncələr burulğanına salır...

Rəssamın yaradıcılığına bu qısa ekskursdan sonra demək olar ki, onun əsərləri çağdaş dünyamızın, onun uzaq-yaxın tarixi həqiqətlərinin özündə hifz etməklə, tamaşaçısına duyulası təsir göstərə biləcək yaddaqalan bədii saxlancdır. Düşünürük ki, bu yüksək bədii-estetik və fəlsəfi yükünə görə tez-tez xatırlanacaq bir mənəvi-bədii qaynaqdır. Bunu isə əslində Nadir Bayrışovun hamının həsrətində olduğu sənətkar qazancı hesab etmək olar...